Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Od
# Adamı

Müəllif: Edward Hughes
İllüstrasiya edən: Lazarus: Alastair Paterson
Uyğunlaşdıran: E. Frischbutter
Tərcümə edən: Günay Əsədova
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

İsraildə hər şey pis idi.  Padşah və mələkə Allaha nifrət edirdi.  Necə də pis nümunədirlər!  Tezliklə xalq da Allaha nifrət etdi və yalançı allahlara ibadət etdi.  Allahı sevən kimsə var idimi? Bəli, bir neçə sadiq ibadət edən adam var idi.  Bir gün Allah onlardan İlyas adlı biri ilə danışdı.



İlyas zalım padşah Axava dedi: “Önündə durduğum İsrailin Allahı var olan Rəbbə and olsun ki, mənim bir sözüm olmayınca bu illərdə şeh və yağış olmayacaq”. Bu aclıq demək idi! Allah Öz xalqı İsraili onların şər əməllərini davam etdirmələrinə izin verməyəcəkdi.





Padşaha xəbərdarlıq edəndən sonra Allah İlyası ölkədə sakit bir yerə göndərdi. Orada, vadi kənarında İlyas gözlədi. Allah onu yedizdirmək üçün qarğalar göndərdi. Onlar səhər-axşam ona çörək və ət gətirirdilər. İlyas vadidən su içirdi.



Bir müddətdən sonra vadi qurudu, çünki ölkədə yağış yağmırdı. Allahın Sözü həyata keçdi. Bütün ölkədə su çatışmazlığı var idi. Taxıl yetişmədi. Xalq ac idi. Bəlkə İlyas su qurtardığına görə indi onunla nə baş verəcəyini fikirləşirdi.

Allah İlyasa dedi: “Qalx, Sarfat şəhərinə get və orada qal. Orada bir dul qadına sənə yemək verməyi əmr etdim”.  Allah Öz qulunun ehtiyacını bilirdi.  Amma necə də qəribə təmin etmə yoludur.



İlyas təvazökarlıqla Allaha itaət etdi.  O, Sarfata getdi.  Dul qadın şəhər darvazasında odun yığırdı.

İlyas qadından xahiş etdi: “Xahiş edirəm, mənə bir qabda azca su gətir içim”.  “Xahiş edirəm, mənim üçün əlinə bir tikə çörək də al”.  Qadın cavab verdi: “Mənim çörəyim yoxdur, amma küpdə bir ovuc un və qabda bir az yağ var”.

Qadın peyğəmbərə kədərli-kədərli dedi ki, bu tükənəndə, o və onun oğlu acından öləcəklər.



İlyas ona dedi: “Qorxma, get söylədiyin kimi et.  Amma əvvəlcə mənim üçün ondan kiçik bir kökə düzəlt və mənə gətir, özünlə oğlun üçün sonra hazırlayarsan”.  “Rəbb torpaq üzərinə yağış verəcəyi günə qədər nə küpdə un tükənəcək, nə də qabda yağ qurtaracaq”.  Bu şeyin baş verməsi üçün Allah möcüzə etməli idi.  O, bunu etdi!  Qadın və onun oğlu uzun müddət ərzində yemək yedilər, ancaq  nə küpdə un tükəndi, nə də qabda yağ qurtardı.



İlyas dul qadının evində yaşayırdı. Bir gün kədərli bir şey baş verdi. Dul qadının oğlu öldü. İlyas oğlanın cəsədini yuxarı otağa apardı. O, Rəbbi çağırıb dedi: “Ey Allahım Rəbb, Sənə yalvarıram, qoy bu uşağın canı özünə qayıtsın”. Necə də qeyri-mümkün bir dua!





Rəbb İlyasın səsini eşitdi və uşağın canı özünə qayıtdı, o dirildi.  İlyas uşağı götürüb anasına verəndə anası dedi: “İndi bildim ki, sən Allah adamısan və sənin ağzında Rəbbin sözü haqdır”.

Üç ildən sonra Allah bu sözlərlə İlyası padşahın yanına göndərdi: “Mən torpağın üzərinə yağış verəcəyəm”.



Axavın yanına getmək?  Onun arvadı İzevel Allahın yüz peyğəmbərini öldürmüşdü.  Amma İlyas mübahisə etmədi.  O, padşah Axavın yanına getdi.



Onlar görüşəndə İlyas Axavı bütün İsraili və 850 yalançı peyğəmbəri bir yerə toplamağa çağırdı.  Karmel dağında İlyas xalqa dedi: “Əgər Rəbb Allahdırsa, Ona xidmət edin”.



İlyas qurban olaraq iki buğa gətizdirdi.  Amma onları yandırmaq üçün oddan istifadə edilməməli idi.  O dedi: “Siz öz allahlarlınızı çağırın, mən də Rəbbin ismini çağıracağam.  Hansı odla cavab verərsə, O, Allahdır”.  Camaat cavab verdi: “Qoy belə olsun”.



Yalançı peyğəmbərlər səhərdən axşamacan öz yalançı allahlarını çağırdılar. Onlar coşdular, oynadılar və qan axana qədər özlərini bıçaqla kəsdilər. Amma od gəlmədi.





Sonra İlyas odunları və qurbanı su ilə islatdı və dua etdi: “Ya Rəbb, məni eşit ki, bu insanlar Sənin Rəbb Allah olduğunu bilsinlər…”. Onda Rəbbin odu düşdü. O, qurbangahdakı buğanı və odunu yandırdı. Sonra daş qurbangahı da yandırdı!

Camaat bunu görəndə qışqırdı: “Rəbb, Allahdır!” İlyas dedi: “Baal peyğəmbərlərini tutun, onlardan bir nəfər də qaçıb qurtarmasın!” İlyas padşah Axavın çoxdan etməli olduğu şeyi etdi. O, yalançı peyğəmbərləri öldürdü.



Sonra Allahın qulu Axava tezliklə yağışın yağacağını dedi.  Tezliklə kiçik bulud peyda oldu.  Yağış yağacaqmı?  Öldürücü üçillik quraqlıqdan sonra?





Qısa müddətdən sonra səma buludlarla və küləklə qaraldı, güclü yağış yağdı.  Allah yağış göndərdi.  Allah xalqa göstərdi ki, İlyas onlara həqiqəti deyirdi. Allah göstərdi ki, yalnız O, həqiqi Allahdır.



Səncə padşah Axav Allaha və Onun qulu İlyasa ehtiram göstərdi? Xeyr!  Düzünü desək, İzevel İlyası öldürməyə çalışdı, ancaq o qaçdı. Axırda Axav döyüşdə öldü və qulluqçular İzeveli sarayda yüksəklikdən aşağı itələdilər.  O, daşların üstünə düşüb öldü.



İlyasla nə baş verdi?  Bir gün Allah odlu bir araba və odlu atlar göndərdi, Allahın od adamı İlyas qasırğa ilə göyə qaldırıldı.

# Od Adamı

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

1 Padşahlar 17-19, 2 Padşahlar 2

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

24

60

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**